**Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:[1]

***Dövlət Komissiyasının sədri***

*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Dövlət Komissiyasının üzvləri***

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri*[2]

~~*Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi – şöbə müdiri*~~

*Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri*

*Azərbaycan Respublikasının iqtisadiyyat naziri*

*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*

*Azərbaycan Respublikasının maliyyə naziri*

*Azərbaycan Respublikasının fövqəladə hallar naziri*

*Azərbaycan Respublikasının səhiyyə naziri*

*Azərbaycan Respublikasının daxili işlər naziri*

*Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri*

*Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi*

*Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri*

*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*

*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*

*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri.*

2. Dövlət Komissiyasına tapşırılsın ki:

2 gün müddətində quş qripi xəstəliyinin profilaktikasına dair fövqəladə tədbirlər planını hazırlayıb təsdiq etsin;

quş qripi xəstəliyi haqqında kütləvi informasiya vasitələri üçün gündəlik məlumatın verilməsini təmin etsin;

dövlət büdcəsinin və beynəlxalq maliyyə qurumlarının vəsaitləri hesabına quş qripi xəstəliyinin profilaktikasının maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təklif təqdim etsin;

görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat versin;

bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 fevral 2006-cı il
№ 1320

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cI il, № 7, maddə 588**)
2. 26 sentyabr 2006-cı il tarixli 1689 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 790)**
3. 13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 2009-cu il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 74**)
4. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 5, maddə 477)**
5. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)**
6. 15 fevral 2019-cu il tarixli **965** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 16 fevral 2019-cu il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 295)**
7. 30 yanvar 2020-ci il tarixli **1776** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 31 yanvar 2020-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №1, maddə 41)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cI il, № 7, maddə 588**) ilə 1-ci bəndində "Əvəz Ələkbərov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri "Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri ilə əvəz edilmişdir.

26 sentyabr 2006-cı il tarixli 1689 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 790)** ilə 1-ci bəndində "Abbas Abbasov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə əvəz edilmişdir.

13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 2009-cu il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 74**) ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri "**Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 5, maddə 477)** ilə 1-ci hissəsində "**iqtisadi inkişaf"** sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)** ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

15 fevral 2019-cu il tarixli **965** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 16 fevral 2019-cu il, № 38, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 295)** ilə 1-ci hissə ilə yaradılmış Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Dövlət Komissiyasının sədri**~~

| | |
|---|---|
| ~~Yaqub **Eyyubov**~~ | ~~- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini~~ |

~~**Dövlət Komissiyasının üzvləri**~~

| | |
|---|---|
| ~~İsmət **Abbasov**~~ | ~~- Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri~~ |
| ~~Şahin **Mustafayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |
| ~~Hüseynqulu **Bağırov**~~ | ~~- Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~ |
| ~~Samir **Şərifov**~~ | ~~- Azərbaycan Respublikasının maliyyə naziri~~ |
| ~~Kəmaləddin **Heydərov**~~ | ~~- Azərbaycan Respublikasının fövqəladə hallar naziri~~ |
| ~~Oqtay **Şirəliyev**~~ | ~~- Azərbaycan Respublikasının səhiyyə naziri~~ |
| ~~Ramil **Usubov**~~ | ~~- Azərbaycan Respublikasının daxili işlər naziri~~ |
| ~~Aydın **Əliyev**~~ | ~~- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri~~ |
| ~~Elçin **Quliyev**~~ | ~~- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi~~ |
| ~~Zeynal **Nağdaliyev**~~ | ~~- Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri~~ |
| ~~Vaqif **Sadiqov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Abbas **Vəlibəyov**~~ | ~~- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini - Azərbaycan Respublikasının Baş dövlət sanitar həkimi~~ |

~~İsmayıl **Həsənov**~~ ~~– Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin rəisi~~

[2] 30 yanvar 2020-ci il tarixli **1776** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 31 yanvar 2020-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №1, maddə 41)** ilə 1-ci hissədən "**Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi – şöbə müdiri**" sözləri çıxarılmışdır və həmin hissədə "**Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi – şöbə müdiri**" sözləri "**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**" sözləri ilə, "**direktoru**" sözü "**sədri**" sözü ilə əvəz edilmişdir.